“Təsdiq edilmişdir”

“Yelo Bank” ASC-nin İdarə Heyətinin

“29” sentyabr 2023-cü il Qərarı ilə

Protokol №45

İdarə Heyətinin sədri v.m.i.e

Yaşar Kərimov

**“İstehlak kreditləri üzrə Ümumi Şərtlər” Toplusu**

**Bakı- 2023**

**§ 1. Preambula**

1.1. Bu "İstehlak kreditləri üzrə ümumi şərtlər" Toplusu (bundan sonra "Şərtlər") Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 25 fevral 1994-cü il tarixdə, 203 sayla lisenziyaların mərkəzi reyestrinə daxil edilmiş, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "Yelo Bank" ASC (bundan sonra- Bank, Borcverən adlandırıla bilər) və fiziki şəxs olan borcalan (bundan sonra "Müştəri", "İstehlakçı", "Borcalan" adlandırıla bilər) (birlikdə "Tərəf", ayrılıqda "Tərəflər" adlandırıla bilər) arasında bağlanılan və sahibkarlıq və ya peşə fəaliyyəti ilə bağlı olmayan məqsədlər üçün pul vəsaitinin İstehlakçıya borc verilməsi və İstehlakçının aldığı borcu faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə qaytarması ilə əlaqədar müqavilənin (bundan sonra "İstehlak krediti müqaviləsi", "Müqavilə", "Kredit müqaviləsi" adlandırıla bilər) ayrılmaz tərkib hissəsi hesab edilir və Tərəflər arasında bununla bağlı münasibətləri tənzimləyir.

1.2. Bu "Şərtlər" üzrə "istehlak krediti" və ya "kredit" dedikdə aşağıdakı müqavilələr üzrə verilmiş pul vəsaitləri istisna olmaqla sahibkarlıq və ya peşə fəaliyyəti ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxs olan borcalana verilən və onun tərəfindən İstehlak müqaviləsində müəyyən edilmiş faizlər və (və ya) Müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə Müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə qaytarılmalı olan pul vəsaitləri başa düşülür:

- daşınmaz əmlaka dair hüquqların əldə edilməsi ilə bağlı və ya daşınmaz əmlakın ipotekası ilə təmin edilən kredit müqavilələri;
- kredit müqaviləsinin bağlandığı anda məbləği Azərbaycan Respublikası üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqı məbləğindən aşağı və ya həmin məbləğin 300 (üç yüz) mislindən çox olan müqavilələr;
- 90 (doxsan) gün müddətinədək bank hesabının kreditləşdirilməsinə;
- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 743.1-ci maddəsinə uyğun olaraq kreditlərin verilməsi fəaliyyətini həyata keçirən borcverənin öz işçilərinə verdiyi kreditlər üzrə müqavilələr;
- investisiya xidmətlərini həyata keçirən təşkilatlar tərəfindən qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə onların həyata keçirdiyi əqdlərin bağlanması üçün verilən kreditlər üzrə müqavilələr;
- məhkəmə və ya mediasiya vasitəsilə bağlanan barışıq sazişinə əsasən bağlanmış kredit müqavilələr;
- kredit borcunun və digər ödənişlərin yeni müddətə ödənilməsini nəzərdə tutan və faizsiz müəyyən edilən restrukturizasiya müqavilələri;
- öhdəliyin icrası borcverənin sahibliyinə verilən əşya ilə təmin edilən və istehlakçının öhdəliyinin yalnız həmin əşya ilə məhdudlaşmasını nəzərdə tutan kreditlər üzrə müqavilələr.

1.3.İstehlakçı gələcəkdə istifadə və istinad etmək üçün bu "Şərtlər"in bir nüsxəsini çap edərək özü üçün saxlaya bilər. Bu "Şərtlər"in hər-hansı bir müddəası İstehlakçı üçün aydın olmadıqda, izaha və ya hər-hansı formada şərhə ehtiyac yarandıqda, o, təxirəsalınmadan öz mülahizəsinə uyğun olaraq, Bankın inziati binasına fiziki olaraq yaxınlaşmaqla və ya müstəqil peşəkar hüquqi yardım almaqla yaranmış ehtiyacı aradan qaldırmalıdır.

1.4.İstehlakçı "İstehlak krediti müqavilə"sini Azərbaycan Respublikası qanunvericiliyinə (bundan sonra qanunvericilik) uyğun olaraq imzalamaqla, bəyan etmiş olur ki, o, bu "Şərtlər"i oxuyub, bütün müddəaları onun üçün aydındır və bu faktı təsdiq edir.

1.5.Bank xidmətlərindən istifadə edilməzdən öncə və ya istifadə zamanı Bank İstehlakçıdan qanunvericiliklə qadağan olunmayan ərizə, anket və s. əlaqəli sənədlərin təqdim edilməsi ilə bağlı tələb hüquqlarını özündə saxlayır.

1.6.Tərəflər sadalananlarla məhdudlaşmamaq şərtilə iradəsini ifadə Tərəfləri dürüst müəyyən etməyə imkan verən hər hansı üsuldan istifadə olunmaqla (SMS-lə, poçtla, elektron rabitə, Müqavilədə qeyd edilən elektron poçt ünvanı və s. vasitəsilə) "İstehlak krediti müqaviləsi"nin və bu "Şərtlər"in hər-hansı müddəasına əlavə və dəyişiklikləri qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, qarşılıqlı razılığa əsasən edir. Sözügedən əlavə və dəyişikliklər Bank tərəfindən Müştərinin əvvəlcədən Bankla yaranan istənilən münasibəti zamanı Banka bəyan edilmiş, onun müstəsna istifadəsində olan və istifadə edilməsi zamanı yaranan bütün risklərə görə şəxsən və birbaşa məsuliyyət daşıdığı müvafiq ünvanına məktub, telefon nömrəsinə SMS, elektron poçt ünvanına elektron poçt göndərməklə, və ya qanunvericiliklə qadağan edilməyən hər hansı elektron rabitə vasitəsilə rəsmi olaraq təqdim edilir. Göndərilən şərtlərin qəbul edilməsi ilə bağlı qanunvericiliyə uyğun olan, sadalananlarla məhdudlaşmayan, Müştəri tərəfindən Banka razılığını ifadə edən və Bank tərəfindən məqbul hesab edilən iradə ifadəsi ("OK", "Razıyam" ("Raziyam"), "Qəbul edirəm" ("Qabul ediram"; "Qebul edirem"; "Təsdiq edirəm"; "Tasdiq ediram"; "Tesdiq edirem" və s.)) göndərildikdən sonra sözügedən əlavə və dəyişikliklər rəsmiləşdirilmiş hesab olunur. Bank tərəfindən mobil telefon nömrəsinin, poçt ünvanının, teleqraf nömrəsinin, elektron rabitə vasitəsinin, Müqavilədə qeyd edilən elektron poçt ünvanının Müştəriyə aid olmasının müəyyən edilməsi üçün Müştəri ona məxsus telefon nömrəsini, poçt ünvanını, teleqraf nömrəsini, elektron rabitə vasitəsini, elektron poçt ünvanını Banka yazılı surətdə təqdim etməlidir. Müştəri bəyan edir ki, onun Banka təqdim etdiyi telefon nömrəsi vasitəsilə (SMS-lə), poçtla, elektron rabitə vasitəsilə, Müqavilədə qeyd edilən elektron poçt ünvanı vasitəsilə əqdlərin rəsmiləşdirilməsinin digər şəxs tərəfindən həyata keçirilməsi halına, mobil telefon nömrəsinin, poçt ünvanının, teleqraf nömrəsinin, elektron rabitə vasitəsinin, Müqavilədə qeyd edilən elektron poçt ünvanının onun istifadəsində olmaması halına istinad etməyəcəkdir. Bank tərəfindən hesab ediləcəkdir ki, Müştərinin Banka təqdim etdiyi telefon nömrəsi vasitəsilə (SMS-lə) poçtla, elektron rabitə vasitəsilə, Müqavilədə qeyd edilən elektron poçt ünvanı vasitəsilə əqdlərin rəsmiləşdirilməsi üçün edilən bütün hərəkətlər Müştərinin özü tərəfindən həyata keçirilmişdir. Müştəridən asılı olan hər hansı bir səbəbdən SMS-lə, poçtla, elektron rabitə vasitəsilə, Müqavilədə qeyd edilən elektron poçt ünvanı vasitəsilə əqdlərin rəsmiləşdirilməsinin nəticəsi baş verdikdən sonra Müştəri müvafiq əqdin rəsmiləşdirilməsindən xəbər tutarsa və etirazı olarsa, Müqavilənin rəsmiləşdirilməsinin nəticələrinin aradan qaldırılması üçün müvafiq işlər görməli, Banka müraciət etməli və kredit verilərsə, onu Banka dərhal qaytarmalıdır.

1.7.Bu "Şərtlər"lə "İstehlak krediti müqaviləsi" arasında ziddiyyət yaranarsa, bu "Şərtlər" üstün tutulur.

1.8.Əgər bu Şərtlərdə və Müqavilədə ayrı anlayış nəzərdə tutulmayıbsa, bu Şərtlərdə istifadə edilən anlayışlar Bankın müştəri ilə kreditin verilməsi üçün açılan bank hesabı və ya kart üzrə münasibətlərini tənzimləyən və Bankın rəsmi internet səhifəsində yerləşdirilən "Bank Xidmətlərinin Göstərilməsi üzrə Standart Şərtlər"də (fiziki şəxslərə göstərilən bank xidmətlərinin tənzimlənməsi üçün) qeyd edilən mənaları ifadə edir.

## § 2. İstehlak krediti

2.1. "İstehlak krediti müqaviləsi"nə görə Bank sahibkarlıq və ya peşə fəaliyyəti ilə bağlı olmayan məqsədlər üçün İstehlakçıya pul vəsaitini borc verməyi, Müştəri isə aldığı borcu faizlər və (və ya) tərəflər arasında bağlanmış "İstehlak krediti müqaviləsi"ndə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə Müqavilə və bu "Şərtlər" ilə müəyyən edilmiş qaydada və müddətdə qaytarmağı öhdəsinə götürür. Müqavilə üzrə Borcverən yalnız normativ hüquqi aktlara uyğun olaraq kreditlərin verilməsi fəaliyyətinin həyata keçirilməsi hüququna malik şəxs ola bilər.

2.2. Qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, kreditin verilməsinə görə faizin və (və ya) digər haqqın məbləği və ya hesablanma qaydası tərəflərin razılaşması ilə müəyyən edilir.

2.3. Faizlər, o cümlədən gecikdirilmiş vaxt üçün hesablanan faizlər və digər haqlar yalnız kreditin qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanır.

2.4. Müştəri ilə bağlanmış müvafiq "Müqavilə"də ayrı qayda nəzərdə tutulmayıbsa, "Müqavilə" üzrə faizlər illik faiz dərəcəsinin 360-a (üç yüz altmışa) bölünərək, kreditin verildiyi faktiki günlərin (borcun verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla hesablanır.

2.5. "Müqavilə" üzrə faizlər və (və ya) digər haqlar "Müqavilə" ilə müəyyən edilən müddətlərdə ödənilir.

2.6. Qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, Müştərinin əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi və ya Müştərinin Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda, yaxud Müştəri kreditin verilməsi üçün kredit müqaviləsində nəzərdə tutulmuş öhdəliyini icra etmədikdə, o cümlədən təminat təqdim etmədikdə, Bank kredit vermək öhdəliyini tam və ya qismən icra etməkdən birtərəfli qaydada imtina edə bilər.

2.7. Müştəri Kredit müqaviləsinin predmeti ona verilənədək kreditin alınmasından tam və ya qismən birtərəfli qaydada imtina edə bilər.

2.8. Müştəri krediti (həmçinin faizləri və (və ya) haqları) Müqavilədə nəzərdə tutulan müddətdə və qaydada (qanunvericiliyin tələbi nəzərə alınmaqla) Borcverənə qaytarmalıdır. Kredit üzrə pul vəsaiti Banka və ya Bankın göstərdiyi üçüncü şəxsə verildiyi gün, Müqavilədə ayrı qayda nəzərdə tutulmamışdırsa, qaytarılmış hesab olunur.

2.9. Qanunvericilikdə və ya Müqavilədə əlavə qayda nəzərdə tutulmamışdırsa, Müştəri kreditin verildiyi gündən qaytarıldığı günədək hesablanmış faizləri və (və ya) haqları ödəməklə, krediti vaxtından əvvəl qaytara bilər.

2.10. Müştəri Müqavilə üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində heç bir səbəb göstərmədən Müqavilədən imtina edə bilər. Bu halda, Müştəri müqavilə üzrə verilmiş pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Bu halda, Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləği istisna olmaqla, Müştəridən kompensasiya və hər hansı digər ödənişlər alınmır.

2.11. Müştəri krediti istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən Banka qaytara bilər. Bu halda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır.

2.12. Bank Müqavilənin vaxtından əvvəl icrası zamanı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün Müştəridən qanunvericilikdə nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla, müvafiq Müqavilə ilə müəyyənləşdirilmiş kompensasiya məbləğini tələb edə bilər. Kompensasiyanın məbləği müvafiq Müqavilənin müddətinin bitməsinə 1 (bir) ildən çox müddət qaldıqda, kredit üzrə vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizindən, 1 (bir) il və daha az müddət qaldıqda isə 0,5 (sıfır tam onda beş) faizindən çox olmamaqla tələb edilə bilər.

2.12. Vaxtından əvvəl ödəniş həmin Müqavilə üzrə bağlanan sığorta müqaviləsinin əsasında həyata keçirildikdə və (və ya) bank hesabının kreditləşməsi halında Müştəridən kompensasiya məbləği tələb edilmir.

2.13. Müştəri tərəfindən son 12 (on iki) ay ərzində kredit üzrə vaxtından əvvəl ödənilmiş məbləğ ölkə üzrə müəyyən edilmiş minimum əməkhaqqı məbləğinin 40 (qırx) mislindən çox olarsa, Bank ona belə ödəmələr zamanı dəymiş zərəri məhkəmə qaydasında və ya zərərin baş verdiyi tarixdən sonra Müştəri ilə ayrıca razılıq əldə etməklə sübut etmək şərtilə qanunvericiliklə nəzərdə tutulmuş kompensasiya məbləğlərindən daha yüksək (dəymiş zərərə mütənasib) kompensasiya tələb edə bilər. Bu halda, Banka

dəymiş zərər qaytarılan kreditin Müqavilədə nəzərdə tutulan faiz dərəcəsi ilə vaxtından əvvəl ödənilmə anında Bankın borc verdiyi eyni təyinatlı kreditin faiz dərəcəsi arasındakı fərqdən ibarətdir.

2.14. Kompensasiya məbləği hər bir halda kreditin Müştəri tərəfindən vaxtından əvvəl ödənilməsi anı ilə Müqavilənin müddətinin başa çatması anı arasındakı müddətdə ödənilməli olan illik faiz dərəcəsi üzrə hesablanmış faiz məbləğlərindən çox olmamaq şərti ilə tələb edilə bilər.

2.15. Müqavilədə ödənişlərin gecikdirilməsinə görə faizlər (gecikdirilmə faizləri) nəzərdə tutulduqda, həmin faizlərin məbləği Müqavilədə nəzərdə tutulan illik faiz dərəcəsinə 5 (beş) faiz bəndi əlavə edilməklə hesablana bilər. Bu halda əlavə dəbbə pulu (cərimə, penya), komissiya və ya digər formada hər hansı ödəniş tələb edilmir. Gecikdirilmə faizlərinin hesablanması 180 ( bir yüz səksən) gündən çox olmamaqla həyata keçirilir. Əgər Banka dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, Bank Müştəridən həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

2.16. Bank qanunvericiliklə qadağan edilməyən hallarda Müştəridən Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə Müqavilədə nəzərdə tutulan həcmdə, əgər Müqavilədə müəyyən edilməyibsə qanunvericiliklə müəyyən edilmiş həcmdə cərimə (dəbbə, penya) tələb edə bilər.

2.17. Bu Şərtlərdə qeyd edilən kredit öhdəliyinin icrasının təminatının itirilməsi və yaxud dəyərinin azalması hallarına yalnız bu şərtlə tətbiq edilir ki, Müştəri Bank tərəfindən tələb irəli sürüldükdən sonra 12 (iki) ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun.

2.18. Bank Müştərinin vəziyyətini yaxşılaşdıran, o cümlədən borc yükünü yüngülləşdirən halları özündə ehtiva edən yeni şərtləri birtərəfli qaydada İstehlak krediti müqaviləsinə və Şərtlərə əlavə edə və ya dəyişə bilər. Bu əlavə və dəyişikliklər Bank tərəfindən Müştəriyə bu əlavə və dəyişikliklər barədə onun Banka məlum olan və əvvəlcədən eyniləşdirilmiş ünvanına məktub, telefon nömrəsinə SMS, və ya elektron poçt ünvanına elektron məktub, Yelo app mobil tətbiqindəki profilinə və ya bu Şərtlərə uyğun digər üsulla bildiriş göndərildikdən sonra avtomatik olaraq qüvvəyə minir və bununla bağlı Tərəflər arasında İstehlak krediti müqaviləsinə və ya bu Şərtlərə hər hansı əlavə və ya dəyişiklik edilməsi tələb edilmir.

2.19. Qanunvericikdə və ya Müqavilə ilə Borcalanın xeyrinə ayrı qayda nəzərdə tutulmayıbsa, Bank aşağıdakı hallarda müəyyən müddətə verilmiş kreditin (o cümlədən kreditin vaxtından əvvəl tələb edildiyi günədək kreditlə bağlı Banka ödənilməli olan faiz və (və ya) digər ödənişlərin) vaxtından əvvəl qaytarılmasını tələb edə bilər:

2.19.1. Müştərinin əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən Müqavilə bağlanılmazdan əvvəl baş vermiş və Müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda) və ya Müştərinin Banka hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

2.19.2. Kreditin hissə-hissə qaytarılmasını və (və ya) faizlərin və (və ya) haqların hissə-hissə ödənilməsini nəzərdə tutan Müqavilə üzrə vaxtı çatmış kreditin (faizlər və (və ya) haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud kreditin (faizlər və (və ya) haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

2.19.3. Müştəri kredit öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Bankın cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda kreditin vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

2.19.4. Kreditin təyinatı Müqavilədə göstərildiyi halda Müştəri Banka kreditin təyinatı üzrə istifadə edilməsinə müqavilədə nəzərdə tutulmuş qaydada nəzarət etməyə imkan vermədikdə və ya kredit təyinatı üzrə istifadə olunmadıqda.

2.20. Ödəniş əməliyyat gününün sonuna kimi həyata keçirilməlidir. Əməliyyat günü bitdikdən sonra ödəniş terminalı vasitəsilə və ya digər üsulla həyata keçirilən ödəniş növbəti iş günündən gec olmayaraq həyata keçirilən ödəniş hesab edilir.

2.21. Kreditin və faizlərin ödənilməsi tarixi qeyri-iş gününə düşdükdə, müvafiq ödəniş növbəti iş günü icra edilir. Kredit xəttinin ödənişi üçün vaxt aralığı müəyyən edildikdə, ödənişin sonuncu günü qeyri-iş gününə düşərsə Müştəri ödənişi qeyd edilən vaxt aralığında sonuncu iş günü icra etməlidir. Ödənişlərin həyata keçirilməsinə görə məsuliyyəti Müştəri daşıyır və Müştəri ödənişlə bağlı sənədləri Müqavilə üzrə öhdəliklərinə xitam verilənədək saxlamalıdır.

2.22. Müştəri və ya onun xeyrinə üçüncü şəxs tərəfindən ödənilən pul vəsaiti əgər Müqavilədə bu ardıcıllıqdan fərqlənən digər qayda müəyyən edilməyibsə, ilk növbədə Bankın xərclərinin, komisyon haqqın və ona dəyən zərərin, ikinci növbədə Müqavilədə nəzərdə tutulduğu təqdirdə ödəniş tarixinə olan hesablanmış cərimə (dəbbə pulunun) və ya gecikdirilmə faizlərinin (aylar üzrə ardıcıllıqla), gecikdirilmiş əsas borc üzrə hesablanmış faizin (aylar üzrə ardıcıllıqla), gecikdirilmiş əsas borcun (aylar üzrə ardıcıllıqla), ödənilmə tarixindən etibarən əsas borca hesablanmış faizin silinməsinə, son olaraq qalıq məbləğ isə əsas borc məbləğinin ödənilməsinə yönəldilir. Bu zaman Müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ödəniş gününə olan cari borcdan (xərc, komisyon haqq, zərər, Müqavilədə nəzərdə tutulduğu təqdirdə dəbbə pulu (cərimə, penya), gecikdirilmə faizləri, hesablanmış faizlər, kredit məbləğinin ödəniş gününə ödənilməli olan hissəsi) artıq vəsait Bankın təqdim etdiyi ödəniş vasitələri ilə ödənişi icra edərkən Müştərinin iradə ifadəsi artıq vəsaitin kreditin ödənilməsinə yönləndirilməsi ilə bağlı olmazsa, Müştərinin hesabında qalmaqla, növbəti hissə üzrə bu Şərtlərdə nəzərdə tutulmuş qaydada ödənişlərin icrası üçün saxlanılır. Digər halda Müştərinin kredit üzrə ödəniş cədvəli artıq ödənilmiş vəsaitin həcmində Müqaviləyə və bu Şərtlərə uyğun olaraq avtomatik yenilənir. Müştəri artıq vəsaitin digər hüquqi vəziyyətini müəyyən etmək məqsədilə Banka müraciət edə və qanunvericilikdə və Bankla onun arasında bağlanmış müvafiq hesab müqaviləsində nəzərdə tutulmuş qaydada həmin vəsait üzrə sərəncam hüquqlarını icra edə bilər. Bu yarımbənddə aylar üzrə ardıcıllıq dedikdə, gecikmə baş verdiyi tarixdən (başlanğıc tarix) ödəniş tarixinə (son tarix) doğru hesablanma nəzərdə tutulur.

2.23. Faizlərin ödənişi ödəniş qrafikində nəzərdə tutulmuş ödəniş müddətlərindən gec olmayaraq həyata keçirilməlidir.

2.24. Xarici valyuta ilə verilmiş kredit manatla və ya manatla verilmiş kredit xarici valyuta ilə ödənilərkən və ya Müştərinin sərəncamı olmadan silinərsə həmin məbləğ kredit ödənilən və ya silinmə aparılan günə Bankın müvafiq olaraq valyutanın nağd və ya nağdsız alqı-satqısı üzrə mövcud olan satış kursu ilə konvertasiya edilərək Müştərinin borcunun ödənilməsinə yönəldilir.

2.25. Borc məbləğinin tam həcmdə qaytarılması tarixi əgər Bankın təqdim etdiyi ödəniş vasitələri ilə ödənişi icra edərkən Müştərinin iradə ifadəsi artıq vəsaitin kreditin ödənilməsinə yönləndirilməsi ilə bağlı olarsa, kredit üzrə əsas borcun və hesablanmış faizlərin (o cümlədən, Müqavilədə nəzərdə tutulduğu halda cərimə və ya gecikdirilmə faizləri) Bankın bu məqsədlə açdığı hesaba daxil olduğu tarix hesab olunur. Əgər Borcalanın hesabı üzərinə qoyulmuş həbs və ya icra (ödəniş) sənədi (o cümlədən, vergi sərəncamı) səbəbilə Borcalan tərəfindən həyata keçirilən ödəniş dövlətin, dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin xeyrinə silinərsə və ya həbs edilərsə (dondurularsa), Kredit üzrə ödənişlər həyata keçirilməmiş sayılır.

2.26. Müştəri Kredit üzrə aylıq ödənişləri ödəniş cədvəlində qeyd olunan tarixdən əvvəl və ya ödəniş

cədvəli üzrə təyin edilmiş aylıq ödənişdən artıq ödədiyi halda, əgər Bankın təqdim etdiyi ödəniş vasitələri ilə ödənişi icra edərkən Müştərinin iradə ifadəsi artıq vəsaitin kreditin ödənilməsinə yönləndirilməsi ilə bağlı olmazsa, sonradan Banka aşağıda qeyd edilən üsullarla müraciət etməklə sözügedən ödənişin silinməsini həyata keçirə bilər:

2.26.1. Bankın Məlumat mərkəzinə (012 981) müvafiq bankdaxili identifikasiya qaydalarına əməl edərək müraciət etməklə;

2.26.2. Bankın istənilən filialında müraciət etməklə;

2.26.3. Mobil tətbiq vasitəsilə cədvəldə təyin olunmuş məbləğdən artıq vəsaitin ümumi borcdan silinməsinə dair seçim etməklə.

2.27. Müştəri Kredit üzrə aylıq ödənişləri Bankın təqdim etdiyi ödəniş vasitələri ilə icra edərkən Müştərinin iradə ifadəsi vaxtından əvvəl ödənilmiş məbləğin kreditin ödənilməsinə yönləndirilməsi ilə bağlı olduqda, və ya bu Şərtlərə uyğun olaraq krediti vaxtından əvvəl ödədikdə müvafiq məbləğ Müştərinin banka olan borcuna bu Şərtlərdə və Müqavilədə qeyd edilən qaydada silinir və Müştərinin ödəniş cədvəli bu Şərtlərə və Müqaviləyə uyğun olaraq yenilənir. Bu zaman Müqavilədə başqa qayda nəzərdə tutulmamışdırsa ödəniş tarixi ilkin ödəniş cədvəlinə uyğun olaraq qalır və Müştəri növbəti ödəniş tarixində yenilənmiş ödəniş cədvəlinə uyğun məbləğdə kredit ödənişini həyata keçirməlidir.

**§3. Tərəflərin hüquq və öhdəlikləri:**

**3.1. Müqavilədə və bu Şərtlərdə nəzərdə tutulan digər hüquqlarla yanaşı Bank aşağıdakı hüquqlara malikdir*:***

3.1.1.Müştərinin razılığı olmadan Müqavilə üzrə hüquqlarını qismən və ya tamamilə üçüncü şəxslərə vermək və bu zaman kommersiya və ya bank sirri təşkil edən məlumatları həmin üçüncü şəxsə açıqlamaq hüququna malik olmaq;

3.1.2.Müqavilədən irəli gələn öhdəliyin vaxtında və lazımi qaydada icra edilməməsi ilə əlaqədar krediti hesablanmış faizlər, Müqavilədə nəzərdə tutulan hallarda cərimə və ya gecikdirilmə faizləri və Müqaviləyə əsasən ödənilməsi nəzərdə tutulan digər məbləğlər ilə birlikdə qaytarılmasını, dəymiş zərərin, o cümlədən əldən çıxmış faydanın ödənilməsini tələb etmək;

3.1.3.Müştəri tərəfindən Banka edilən ödənişlər Müqaviləyə uyğun həyata keçirilmədikdə, kredit üzrə əsas borcu, hesablanmış faizləri, komissiyaları, Müqavilədə nəzərdə tutulan hallarda cərimə və ya gecikdirilmə faizlərini və dəymiş zərəri Müştərinin Bankdakı hər hansı hesabındakı (hesabın hazırkı kredit ilə bağlı olub-olmamasından asılı olmayaraq) pul vəsaitini onun razılığı və sərəncamı olmadan akseptsiz və birtərəfli qaydada silmək;

3.1.4.Müqavilə üzrə öhdəliklər və vəzifələr yerinə yetirilmədikdə və ya lazımınca yerinə yetirilmədikdə, təminata tələb yönəltmək;

3.1.5.Kreditin təminatı olan əmlakın bazar dəyəri əhəmiyyətli dərəcədə pisləşdikdə və ya digər səbəblər üzündən qiyməti aşağı düşdükdə, həmin əmlakın digər əmlakla əvəz olunmasını, bərpa edilməsini, artırılmasını və / və ya əlavə əmlakın girova (ipotekaya) qoyulmasını tələb etmək;

3.1.6.Yoxlamaların (monitorinqlərin) keçirilməsi üçün Müştəri şərait yaratmadıqda və ya tələb olunan sənədləri təqdim etmədikdə və ya Müqavilə üzrə digər öhdəliklərini pozduqda, cərimələr tətbiq etmək, habelə öhdəliklərin vaxtından əvvəl icra edilməsini Müştəridən tələb etmək;

3.1.7.Müştərinin təqdim edildiyi sənədləri (o cümlədən kreditin təminatı barədə sənədlər) qanunvericiliyin və Bankın tələblərinə uyğun olduqda, kredit məbləğini Müqavilə ilə müəyyən edilmiş qaydada Müştərinin hesabına köçürmək;

3.1.8.Bu Şərtlərdə və Müqavilədə, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda kreditin vaxtından əvvəl ödənilməsini Müştəridən tələb etmək;

3.1.9.Qanunvericiliyə, Müqaviləyə və bu Şərtlərə uyğun digər hüquqları həyata keçirmək.

**3.2. Müqavilədə və bu Şərtlərdə nəzərdə tutulan digər hüquqlarla yanaşı Bank aşağıdakı öhdəliklərə malikdir:**

3.2.1. Müştəri haqqında məlumatların məxfiliyini qanunvericilik və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun şəkildə təmin etmək;

3.2.2.Müştəri tərəfindən kreditin və kredit üzrə hesablanmış faizlərin ödənilməsinin uçotunu aparmaq;

3.2.3.Müştərinin tələbi ilə onun öz üzərinə götürdüyü öhdəliklərin tam və ya qismən yerinə yetirilməsi barədə sənəd təqdim etmək;

3.1.9. Qanunvericiliyə, Müqaviləyə və bu Şərtlərə uyğun digər öhdəlikləri həyata keçirmək. ***3.3.*** **Müqavilədə və bu Şərtlərdə nəzərdə tutulan digər hüquqlarla yanaşı Müştəri aşağıdakı hüquqlara malikdir:**

3.3.1. Bank tərəfindən tələb edilən müvafiq sənədlər, o cümlədən kreditin təminatı barədə Bankın tələblərinə cavab verən sənədlər təqdim edildikdən sonra, bu Müqavilədə nəzərdə tutulmuş hallar mövcud olmadıqda Müqaviləyə uyğun olaraq kredit məbləğini Müqavilə ilə müəyyən edilmiş qaydada almaq;

3.3.2. Qanunvericiliyə və Müqaviləyə və bu Şərtlərə uyğun olaraq aldığı krediti (bir hissəsini və ya tam məbləğini) vaxtından əvvəl qaytarmaq;

3.3.3. Müqavilə müddətində sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə, digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə etmək (ödəniş qrafikində həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilir);

3.3.4. Qanunvericiliyə, Müqaviləyə və bu Şərtlərə uyğun digər hüquqları həyata keçirmək.

**3.4. Müqavilədə və bu Şərtlərdə nəzərdə tutulan digər hüquqlarla yanaşı Müştəri aşağıdakı öhdəliklərə malikdir:**

3.4.1. Adı, soyadı, mobil nömrəsi, həmçinin rekvizitlərdəki digər dəyişikliklər haqqında məlumatları 3 (üç) iş günü ərzində Banka təqdim etmək;

3.4.2. Hər hansı səbəbdən rezidenti olduğu ölkə dəyişildikdə bu barədə dəyişiklik baş verdiyi tarixdən 1 (bir) ay ərzində Banka məlumat vermək;

3.4.3. Müştəri tərəfindən məlumatların təqdim edilməməsi və ya vaxtında təqdim edilməməsi nəticəsində Banka dəyən ziyana görə cavabdeh olmaq;

3.4.4. Müqavilənin rəsmiləşdirilməsi üçün Bankın tələb etdiyi sənədləri Bankın müəyyən etdiyi müddət ərzində təqdim etmək, sənədlərdə dəyişikliklər baş verdikdə, o cümlədən şəxsiyyəti təsdiq edən sənədin rekvizitləri, qeydiyyat və poçt ünvanı, mobil nömrəsi və digər məlumatlar dəyişdikdə, bu barədə Bankı dərhal yazılı surətdə məlumatlandırmaq;

3.4.5. Müqavilə bağlandıqdan sonra 10 (on) iş günündən gec olmayaraq tələb olunan müvafiq sığorta müqavilələrini, sığorta müqavilələrinin müddətinin başa çatmasına ən azı 30 (otuz) gün qalmış müqavilələrin müddətinin uzadılmasını və ya yeni müqavilələrin imzalanmasını təsdiq edən sənədləri Banka təqdim etmək;

3.4.6. Kredit təminatla verildikdə, kreditin təminatı barədə sənədləri (o cümlədən, girov, ipoteka, qarantiya və zaminlik müqavilələri, həmçinin Bank tərəfindən tələb edildikdə bu Müqaviləyə uyğun sığorta sənədləri) hazırkı Şərtlərə, Müqaviləyə, qanunvericiliyə müvafiq qaydada rəsmiləşdirmək, girov və

ipotekanın sığortalanmasını və müvafiq hallarda dövlət qeydiyyatının aparılmasını təmin etmək və Banka təqdim etmək;

3.4.7. Müqavilədə nəzərdə tutulmuş müddətlərdə kredit üzrə hesablanmış faizləri və Müqavilədə nəzərdə tutulduğu hallarda cəriməni və ya gecikdirilmə məbləğlərini, habelə Müqaviləyə uyğun olaraq komissiya haqlarını, çıxarış və arayışların Müştəriyə verilməsi və ya Müştərinin adından göndərilməsi üzrə xərcləri (qanunvericilikdə başqa hal nəzərdə tutulmadıqda) Banka vaxtında və tam olaraq ödəmək;

3.4.8. Bank öhdəliklərin icrasını vaxtından əvvəl tələb etdikdə krediti hesablanmış faizlər, komissiyası, Müqavilədə nəzərdə tutulduğu hallarda cəriməni və ya gecikdirilmə məbləğləri və dəymiş zərər ilə birlikdə qaytarmaq;

3.4.9. Kreditin məqsədli təyinatına uyğun istifadə edilməsini təsdiqləyən maliyyə və digər sənədləri Banka təqdim etmək;

3.4.10. Kreditin məqsədli təyinatına uyğun istifadə etmək, istifadə edə bilmədikdə isə, bu barədə Bankı dərhal məlumatlandırmaq;

3.4.11. Bu Müqavilə üzrə borcun ödənilməsinə və ya təminata mənfi təsir göstərə biləcək hallar barədə Bankı yazılı surətdə dərhal məlumatlandırmaq;

3.4.12. Bankın razılığı olmadan bu Şərtlərə, Müqaviləyə əsasən ona məxsus hüquqları və öhdəlikləri üçüncü şəxslərə verməmək;

3.4.13. Bank müraciət edərsə, Şərtlər və Müqavilə üzrə öhdəliklərin icrasına nəzarət etməsi və yerləşdiyi binalarda və ərazilərdə Bankın əməkdaşları tərəfindən yoxlamalar keçirilməsi üçün bütün şəraiti yaratmaq;

3.4.14. Bankın tələbinə əsasən kredit təminatını borc tələbinin məbləğindən az olmayan məbləğdə və borc tələbinin müddətindən az olmayan müddətə sığortalanamasını təmin etmək;

3.4.15. İnternet Banking platformasında qeydiyyat zamanı daxil etdiyi məlumatların tam və düzgün olduğunu təsdiq etmək və Pin, Login və digər yayılmaması tələb olunan məlumatları məxfi saxlamaq;

3.4.16. Qanunvericiliyə, Müqaviləyə və bu Şərtlərə uyğun digər hüquqları həyata keçirmək.

**§4. Digər şərtlər**

4.1. Tərəflər arasında Müqavilənin, o cümlədən hazırkı Şərtlərin icrası ilə əlaqədar yaranan mübahisələr qanunvericiliyə əsasən məhkəmə qaydasında həll olunur. Tərəflər arasında mübahisələrə məhkəmədənkənar qaydada yalnız Tərəflərin qarşılıqlı razılığı və ya Müqavilədə nəzərdə tutulan hallarda yol verilir. Tərəflər arasında Müqavilə, o cümlədən hazırkı Şərtlər ilə tənzimlənməyən münasibətlər qanunvericiliklə ilə tənzimlənir.

4.2. Müqavilənin, o cümlədən hazırkı Şərtlərin hər hansı bəndinin qismən və ya bütünlüklə etibarsız, yaxud qanunvericiliyə zidd olması müəyyən edildikdə, sözügedən etibarsız bənd və ya onun etibarsız hissəsi Müqavilədən çıxarılmış hesab ediləcək və Müqavilənin digər bəndlərinin etibarsızlığına səbəb olmayacaqdır.

4.3. Müqaviləni imzalamaqla Müştəri öz kredit borcları haqqında məlumatların alınması və onun haqqında toplanan məlumatlarda qeyri-dəqiqliyin aradan qaldırılması üçün Banka Azərbaycan Respublikası Mərkəzi Bakının Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) və kredit bürolarına müraciət etmək hüququnu verir.

4.4. Fors-major hallarında (daşqın, uçqun, sel, zəlzələ, yer sürüşməsi, yanğın, müharibə, silahlı iğtişaşlar və s.) Müqavilənin, o cümlədən hazırkı Standart şərtlərin icrası mümkün olmadıqda onun icrası həmin halın mövcud olduğu müddət ərzində dayandırılır. Fors-major halına istinad edən tərəf bu halın baş verməsi haqqında digər tərəfə dərhal yazılı məlumat verməlidir. Hər hansı fors-major kimi yalnız müvafiq səlahiyyətli orqanın qərarı əsasında tanınır.

4.5. Müqavilədə, o cümlədən hazırkıŞərtlərdə qeyd edilənlərin pozulmasında təqsirli olan tərəf öz hərəkəti ilə digər tərəfə vurduğu zərəri ödəməlidir.

4.6. Müştərinin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bank sirri təşkil edən məlumatları Bank tərəfindən qorunur və həmin məlumatlar qanunvericilikdə nəzərdə tutulan qaydada üçüncü şəxslərə verilə bilər. Bundan əlavə, Müştəri Müqaviləni imzalamaqla təsdiq etmiş olur ki, onun Bankda olan müvafiq hesabları üzrə aparılan əməliyyatlarla bağlı Bank tərəfindən ATM və digər qurğular vasitəsilə əldə edilə bilən fotoşəkil, videomateriallar və həmin hesaba dair digər məlumatlar Bank tərəfindən Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarına verilə bilər.

4.7. Müştərinin Banka məlum olan əlaqə vasitələri üzrə məktub, elektron poçt (e-mail), faks, SMS və İnternet Banking/Mobile Banking tətbiqi ilə göndərilən məlumat, edilən müraciət, habelə elektron sənəd mübadiləsi mahiyyətindən asılı olaraq Tərəflər arasında yazılı məlumat və/və ya Müştərinin təsdiqi hesab olunur. Müştərinin Banka təqdim etdiyi əlaqə vasitəsi ilə Banka ünvanlanan müraciətlər birbaşa Müştəri tərəfindən edilmiş hesab edilir. Bu səbəbdən həmin əlaqə vasitələrindən gələn müraciətləri qəbul etməmək barədə Müştəri Banka məlumat verənədək müraciətlərin qəbulu ilə bağlı Bank heç bir məsuliyyət daşımır.

4.8. Bankın əlaqə vasitələri: 1. Ünvan: Həsən bəy Zərdabi pros. 81k; 2. Elektron poçt: bank@yelo.az; 3. Əlaqə nömrəsi: (+99412) 981

4.9. Müştəri bank xidmətlərindən istifadə zamanı qarşılaşdığı çətinliklər və suallarla əlaqədar müraciətlərini Azərbaycan Respublikasının Mərkəzi Bankına **(+99412)493 5058 telefon nömrəsi və ya (+99412) 966 qaynar xəttindən** istifadə etməklə və ya Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç. 90 ünvanına məktub göndərməklə ünvanlaya bilər.